# Qazi-yazar, hüquqşünas Vaqif Hüseynin döyüş yolu...

**Onlar da özlərini Zəfər yürüşünün yoluçuları sırasında gördülər. Qələmi silaha dəyişib düşmənə qarşı döyüşdülər. Bir çoxları ön cəbhədə, ən qaynar nöqtələrdə yağı düşmənlə üz-üzə mücadilə verdi, bəziləri isə ona etibar edilən strateji əhəmiyyətli yerlərimizin keşiyində dayandılar, müdafiə mövqeyində durdular, ordumuzun geri qaytardığı ərazilərimizin müdafiəsi ilə məşğul oldular.**




Yuxarı komandanlıq tərəfindən kimə nə əmr verildisə onu canla-başla icra etdilər. Azərbaycan jurnalistləri, yazarları, əli qələm tutanları 44 günlük Vətən müharibəsində çox böyük qəhrəmanlıqlar göstərdilər. Zəfər yürüşündə 30-a qədər həmkarımızın iştirak etdiyi deyilir. "Bakı-Xəbər" qəzeti qazi jurnalistlərlə bağlı xüsusi layihə təqdim edir və layihəmizin növbəti qonağı "Yeni Müsavat" qəzetinin yazarı və hüquqşünası Vaqif Hüseyndir. İki oğul atası olan Vaqif bəy digər qəhrəmanlarımız kimi bu qisasın övladlarımıza miras qalmaması üçün müharibəyə gedib və düşmənlə mübarizədə iştirak edib.

**- 44 günlük Vətən müharibəsinin ikinci ildönümünü yaşayırıq. Əlbəttə, 27 sentyabrdan 9 noyabra qədər olan bu tarix bütün mənalarda unudulmazdır. Bu unudulmaz günü necə xatırlayırsınız? Zəfərə aparan gün xatirinizdə necə qalıb?**

- 27 sentyabrdan 9 noyabra qədər olan tarixlə bağlı danışarkən qeyd etməli olduğum məqamlar var. Mən özüm rütbəli zabitəm. 2007-2009-cu illərdə hərbi xidmətdə olmuşam. Gəncədə xidmət etmişəm. Müharibənin bitməsinə10-15 gün qalmış bizi də cəbhəyə çağırdılar. Yeri gəlmişkən, qeyd edim ki, mən İstanbul Universitetinin doktorantura pilləsində təhsil alıram. Mənə dedilər ki, magistratura tələbəsisiniz, imkan varsa sənəd gətirin bəlkə sizi ona görə aparmayacaqlar. Dedim ki, ehtiyac yoxdur, müharibəyə getməliyəm. Açığını deyim ki, həmin vaxt belə bir şeyi istəmədim, edə də bilməzdim. Vətənə xidmət hər bir kəsin borcudur və əgər çağrılmısansa getməlisən.

## "Şuşanın alınmasına çox sevindik"

Mənə elə gəlir ki, hər kəs bu məsuliyyəti öz üzərində hiss etməlidir.

Biz müharibənin son dövrlərində cəbhəyə getdiyimizə görə yerimiz əsasən müdafiə olunan yerlər idi. Mən Füzuli, Xocavənd bölgəsində olmuşam. Orada hətta bizim düşmənlə üz-üzə mövqelərimiz vardı, çox yaxın idik. Bizim bölüyə də "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalı verdilər, biz o medalları aldıq.

**- Sizcə, döyüşən ordumuzu qələbəyə kökləyən nə idi?**

- Ordumuzu müharibəyə kökləyən, qələbəyə inandıran bir çox amillər vardı. Xalqımız çox vətənpərvər xalqdır. Biz xalq olaraq bir qarış torpağımızın belə getməsi ilə barışa bilmərik. Bu baxımdan heç vaxt torpaqlarımızın işğal faktı ilə barışmamışıq, həmişə ərazilərimizi qaytarmaq arzusunda olmuşuq. Bu yalnız ermənilərlə bağlı deyil. Bu ənənələri ədəbiyyatla, əsərlərlə təlqin etdilər. 30 ildə xalqımızın ürəyində həm məğlubiyyətlə barışmamaq hissi, həm də intiqam duyğusu vardı. Xalqımız heç vaxt torpaqlarımızın işğal edilməsi faktını qəbul edə bilmədi. Mənə elə gəlir ki, torpaq sevgisi bu xalqda özünü yenidən göstərdi və biz yenə də bu ruhla torpaqlarımızın azad edilməsinə qalxdıq. Xatırlayırsınızsa, insanlarımız könüllü şəkildə döyüşə gedirdi. Hər kəsin bir arzusu vardı, tezliklə torpaqlarımız işğaldan azad edilsin.

## "Xalqımızın ürəyində həm məğlubiyyətlə barışmamaq hissi, həm də intiqam duyğusu vardı"

**- Qələbə xəbərini harada eşitdiniz?**

- Xocavənddə eşitdik. Üçtərəfli sazişin imzalanmasını duyduq. Şuşanın alınmasına çox sevindik. Ola bilsin ki, sona qədər gedə bilmədiyimizə görə məyusluq oldu, amma bu da bizdən asılı olan məsələ deyildi.

**-Qələbəyə inanırdınızmı?**

- Qələbəyə hər zaman inanırdıq. Ona görə inanırdıq ki, bizim xalqın əzmi qarşı tərəfin əzmindən daha böyükdür. Bir də ilk dəfə idi ki, biz qədər ərazimizi azad edə bildik. Mənim beynəlxalq münasibətlər üzrə ixtisasım var bu baxımdan deyirəm ki, torpaqlarımızı azad etmək üçün gözəl şərait yarandı və biz bu şəraiti əldən verə bilməzdik. Bu inamla da irəliyə getdik. Allahın köməkliyi ilə qalib gəldik.

**- Ən böyük arzunuz nədir?**

- İki oğlum var. Biz bu savaşa ona görə getdik ki, bu problem, bu dava bizdən sonrakı nəsillərə qalmasın. Ən böyük arzumdan biri də budur ki, Azərbaycanın ərazi bütövlüyü tam olaraq bərpa edilsin. İnişallah həll olunar.

***İradə SARIYEVA***